# "Cənubi Qafqazda iqtisadi inteqrasiya sülhün əsas təminatına çevrilir"

"Son illərdə Cənubi Qafqaz ölkələri təhlükəsizlik, iqtisadi və nəqliyyat maraqlarını daha geniş coğrafi çərçivədə dəyərləndirməyə başlayıblar. Bu yanaşma regionun qapalı siyasi məkan olmaqdan çıxaraq, qlobal ticarət, enerji və tranzit şəbəkələrinin mühüm hissəsinə çevrilməsinə şərait yaradır".



Bunu AZƏRTAC-a açıqlamasında türk politoloq Hüsamettin İnanç bildirib.

O xatırladıb ki, ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan liderlərinin bir araya gəlməsi region üçün mühüm hadisə idi. Həmin görüş çərçivəsində Zəngəzur dəhlizi (TRIPP) layihəsinin yeni status qazanması istiqamətində ciddi addımlar atıldı və layihəyə uzunmüddətli, institusional yanaşma formalaşdırıldı.

"Proses sürətlə son mərhələyə doğru irəliləyir. Zəngəzur dəhlizi Asiya ilə Avropa arasında enerji və ticarət axınlarının təmin olunmasında strateji kəsişmə nöqtəsi rolunu oynayacaq. Bu marşrutun funksional hala gəlməsi regional və qlobal miqyasda ticarət dövriyyəsinin artmasına, logistik imkanların genişlənməsinə və iqtisadi inteqrasiyanın dərinləşməsinə səbəb olacaq. Çin tərəfindən irəli sürülən "Bir kəmər, bir yol" təşəbbüsünün Orta dəhliz xəttində də mühüm dönüş yaradacaq və türk dünyası daxilində iqtisadi əlaqələrin daha da güclənməsinə təkan verəcək", - deyə o bildirib.

Ekspert əlavə edib ki, Rusiya-Ukrayna müharibəsindən sonra enerji təhlükəsizliyi məsələsi Avropa üçün daha aktual xarakter alıb. Bu kontekstdə Cənubi Qafqazdan keçən enerji və nəqliyyat marşrutlarının əhəmiyyəti daha da artıb. Ticarət və enerji axınlarının genişlənməsi region ölkələri arasında iqtisadi əlaqələri gücləndirir, sülhün möhkəmlənməsinə xidmət edir. İnanç vurğulayıb ki, iqtisadi inteqrasiya dərinləşdikcə münaqişə riskinin azalması və sabitliyin artması müşahidə olunur.

Politoloqun sözlərinə görə, regionda formalaşan yeni əməkdaşlıq modeli beynəlxalq aktorların da prosesə konstruktiv şəkildə cəlb olunmasına şərait yaradır. ABŞ-nin bölgədə infrastruktur, enerji və rəqəmsal layihələrə dəstək verməsi Cənubi Qafqazın qlobal iqtisadi sistemə inteqrasiyasını sürətləndirir və balanslı regional inkişaf üçün əlavə imkanlar açır.

Hüsamettin İnanç qeyd edib ki, qarşıdakı mərhələdə Qazaxıstan yüklərinin Azərbaycan ərazisindən Ermənistan istiqamətinə daşınması, Gürcüstanın prosesə daha fəal qoşulması və alternativ tranzit xətlərinin paralel şəkildə işləməsi regionun strateji əhəmiyyətini daha da artıracaq.

Politoloq vurğulayıb ki, Ermənistanın Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmaq istiqamətində atdığı addımlar Cənubi Qafqazda sülhün davamlı xarakter almasına töhfə verir. "Orta dəhlizin güclənməsi Çin-Avropa ticarət xəttinin daha səmərəli işləməsini təmin edəcək, alternativ tranzit yollarının paralel fəaliyyəti bölgənin iqtisadi çəkisini artıracaq. Bütün bu amilləri bir araya gətirdikdə görürük ki, Cənubi Qafqazda artıq müsbət mənada geosiyasi dönüş başlayıb. İqtisadi inteqrasiya, enerji və nəqliyyat layihələri üzərində qurulan əməkdaşlıq modeli bölgədə davamlı sülh üçün real zəmin formalaşdırır", - deyə Hüsamettin İnanç bildirib.

Azərbaycan.- 2026.- 13 fevral (№28).- S.8.